QANUN № 02 (352), 2024, s. 137-142

**Əliyev Zaur Vaqif oğlu,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı
E-mail: zauraliyev450@gmail.com

**UOT 342.61**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.37**

# PROKURORLUĞUN HÜQUQ MÜHAFİZƏ FƏALİYYƏTİNİN KONSTİTUSİON-HÜQUQİ ƏSASLARI

***Açar sözlər:*** *prokurorluq, hüquqi dövlət, qanunun aliliyi, dövlət hakimiyyəti, konstitusion status, məhkəmə orqanları.*

***Ключевые слова:*** *прокуратура, правовое государство, правопорядок, государственная власть, конституционный статус, органы юстиции.*

***Keywords:*** *prosecutor's office, legal state, rule of law, state power, constitutional status, judicial bodies.*

Hüquqi dövlətin təməl prinsiplərindən biri qanunun aliliyi prinsipidir. Qanunun aliliyi, ilk növbədə, konstitusiya normalarına ciddi əməl olunmasında təzahür edir, ona görə də Konstitusiyanın və qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktların tələblərinin hüquq pozuntularından qorunması hüquq mühafizə orqanlarının ən mühüm funksiyalarından biridir. Əgər bir ölkədə qəbul edilən qanunlar icra edilməsə, həmin ölkədə hüquqi vəziyyəti sağlamlaşdırmaq, qanunlara əməl olunmasında nizam-intizam yaratmaq mümkün olmaz.

Qanunun aliliyinin təmin edilməsi üçün prokurorluq orqanlarının üzərinə böyük məsuliyyət düşür. Prokurorluq orqanları qanunçuluq rejiminə nəzarət edərək hüquqi dövlətin mənafeyini qoruyur. Buna görə də prokurorluq orqanlarının hüquqi dövlət quruculuğunda, vətəndaş cəmiyyətinin formalaşdırılmasında rolu böyükdür [4, s. 10].

Prokurorluq dövlət hakimiyyəti sistemində nisbətən müstəqil mövqe tutduğundan hüquq mühafizə orqanları sistemində xüsusi yer tutur. Prokurorluq dövlətdə qanunun aliliyini təmin edən müstəqil hüquq mühafizə orqanıdır.

Prokurorluğun statusunun, onun funksiya və vəzifələrinin müəyyən edilməsi problemi hüquqşünas alimlər arasında müzakirə obyektidir. Bunun səbəbi prokurorluğun hüquqi statusunun kifayət qədər dəqiq müəyyən edilməməsi ilə əlaqədardır.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə görə, prokurorluq haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər qanunlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir [3]. Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsində Azərbaycan Respublikası Prokurorluğunun konstitusion statusu müəyyən edilir. Həmin maddənin I hissəsinə əsasən Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət

işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir. Həmin maddənin II hissəsində isə Azərbaycan Respublikası Prokurorluğunun ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan olması təsbit edilir [1].

Qeyd etmək lazımdır ki, prokurorluq dövlət orqanları sistemində birmənalı mövqe tutmur. Dünyada prokurorluq institutunun tətbiq edildiyi dövlətlərdə prokurorluq orqanının iki modeli tətbiq edilir. Bu modellərin fərqi prokurorluğun dövlət hakimiyyətinin hansı qoluna mənsubluğu ilə müəyyən edilir.

Birinci modelə görə prokurorluq icra hakimiyyətinin tərkibindədir. Belə olan halda prokurorluq funksiyasını hökumət yerinə yetirir və bu səbəbdən bu modelin tətbiq edildiyi ölkələrdə prokurorluq Ədliyyə Nazirliyinin tərkibinə daxil olur. Məhkəmələrdə cinayət işlərində cinayət törətməkdə ittiham olunan şəxsə qarşı ittihamla hökumət çıxış edir. Bu model bir çox dövlətlərdə (ABŞ, Fransa, Belçika, Almaniya, Niderland, Rumıniya, İsrail, Yaponiya) tətbiq edilir. ABŞ-də ədliyyə naziri həm də baş prokuror hesab edilir.

Lakin prokurorluq icra orqanı da deyil və onun tərkibində olmamalıdır. Prokurorluğun nəzarət fəaliyyəti icra hakimiyyətinin fəaliyyətində məhdudlaşdırıcı element olmaqla prokurorluğun ən geniş fəaliyyət sahələrindən biridir. Prokurorluq nəzarəti öz fəaliyyətini icra hakimiyyəti orqanlarının geniş dairəsinə şamil edir [8, s. 56].

Prokurorluğu hakimiyyətin qanunvericilik qoluna aid edən modeldə isə bu hal qanunvericilik hakimiyyətinin qanunlar qəbul etməsi, prokurorluğun isə bütün ölkə ərazisində onlara əməl olunmasına nəzarət etməsi ilə izah olunur. Bu modelin tətbiq edildiyi ölkələrdə prokurorluq qanunvericilik hakimiyyətinin mexanizmlərindən biri hesab edilir və bu zaman prokurorluq orqanları nəzarət səlahiyyətlərini bilavasitə qanunvericilik hakimiyyətindən alaraq onun tərəfindən formalaşdırılır və yalnız ona cavabdeh olur.

Prokurorluğun hakimiyyətin qanunvericilik qoluna aid edilməsi mövqeyini bölüşən V.Lomovski hesab edir ki, bir tərəfdən "ali qanunvericilik hakimiyyəti qanunlar qəbul edildikdən sonra onların icrasına biganə qala bilməz. Ona görə də o, qanunun aliliyini təmin etmək funksiyasını özündə saxlamalı, onların icrasına nəzarət funksiyasını isə prokurorluq orqanlarına həvalə etməlidir". Müəllif həmçinin qeyd edir ki, digər tərəfdən, prokurorluq orqanları özünə həvalə edilmiş vəzifələri təkbaşına yerinə yetirə bilməz və onun bu sahədə dəstəyə ehtiyacı vardır. Çünki prokurorluq orqanları çox vaxt "güclü insanlara" müqavimət göstərməli olur. Buna görə də prokurorluğun qanunvericilik hakimiyyətinin tabeliyində olması fikri irəli sürülür [5, s. 274].

Üçüncü modeldə prokurorluq məhkəmə hakimiyyətinin tərkib hissəsi hesab edilir. Bu tip yanaşma tətbiq edən dövlətlər sayca azdır (İspaniya, İtaliya, Latviya, Bolqarıstan, Kolumbiya). Bu yanaşma məhkəməyə funksionalist yanaşmadan irəli gəlir. Əgər məhkəmə bir funksiyanı həyata keçirirsə, o zaman bu funksiyanın dualist mahiyyəti var: bu funksiya bərabərlik və çəkişmə prinsiplərinin gözləndiyi ittiham və müdafiə tərəflərindən ibarət olan məhkəmə icraatında ifadə olunur. Belə olan təqdirdə bu prosesin tərkib hissəsi olan dövlət ittihamı funksiyası məhkəmə funksiyasının tərkibinə aid olur. Bu modelli dövlətlərdə prokurorluq birbaşa məhkəmələrə tabe olan qurum deyil, məhkəmənin daxilində funksional muxtar bir qurumdur.

Prokurorluğu hakimiyyətin məhkəmə qoluna aid etmək mövqeyinə sadiq qalan bir sıra müəlliflər həmçinin onun konstitusion səviyyədə "Məhkəmə hakimiyyəti" fəslinə daxil edilməsi fikri ilə çıxış edirlər və hesab edirlər ki, fəaliyyətinə və yerinə yetirdiyi funksiyalara görə prokurorluq məhkəmə sisteminə daha yaxındır.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci abzasında qeyd olunur ki, Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır [3]. Bununla da qanunvericilikdə prokurorluq məhkəmə hakimiyyəti sisteminə daxil edilmişdir. Lakin belə yanaşma ziddiyyətlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinə görə, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər [1]. Danılmazdır ki, prokurorluq ədalət mühakiməsini həyata keçirmədiyindən, onun səlahiyyətləri heç də məhkəmə hakimiyyətinin səlahiyyətləri ilə uyğun gəlmədiyindən o, məhkəmə hakimiyyətinin mexanizmi deyildir [7, s. 23-26].

Həmçinin prokurorluğun məhkəmə hakimiyyəti sisteminə daxil edilməsi Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin əsas prinsiplərindən biri olan çəkişmə prinsipinin də pozulmasına gətirib çıxara bilər. Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin III və IV hissələrinə uyğun olaraq məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir. Cinayət məhkəmə icraatında Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir [1]. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 32-ci maddəsinə görə, Azərbaycan Respublikasında cinayət mühakimə icraatı ittiham və müdafiə tərəfinin çəkişməsi əsasında həyata keçirilir. Həmin Məcəllənin 7.0.21-ci maddəsinə əsasən ittiham tərəfi – birlikdə götürülmüş təhqiqatçı, müstəntiq, prokuror, həmçinin zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçıdır [2]. Qeyd olunan çəkişmə prinsipinin tələblərini təmin etmək məqsədilə hər bir tərəf məhkəmədə öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malik olmalıdır. Bu səbəbdən prokurorluğun məhkəmə hakimiyyəti sisteminə daxil edilməsi tərəflərin həm status baxımından, həm də hüquq və imkanlar baxımından bərabərliyini pozur [11, s. 14; 10, s. 37].

Prokurorluğun fəaliyyətinin mahiyyəti onun hakimiyyətin bütün qollarından müstəqilliyi məcburi saxlanılmaqla, eyni vaxtda hakimiyyət orqanları ilə fəal əməkdaşlıq şəraitində onların uğurla həyata keçirilməsinin zəruriliyini nəzərdə tutur. Prokurorluq orqanları Con Lokk tərəfindən irəli sürülən hakimiyyət bölgüsü nəzəriyyəsinə əsasən hakimiyyət qolları arasında yoxlama və tarazlıq vasitəsi rolunu oynayır [9, s. 9].

Beləliklə, prokurorluq dövlət mexanizmində müstəqil strukturdur və onu hakimiyyətin bu və ya digər qoluna aid etməyə ehtiyac yoxdur. Bu, onun hüquqi mahiyyətindən irəli gəlir. "Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində prokurorluğun mərkəzləşmiş orqan olmasının qeyd edilməsi onu göstərir ki, prokurorluq müstəqil hakimiyyət institutudur. Prokurorluq fəaliyyətinin məqsədi qanunun aliliyinin, insan və vətəndaş hüquq və azadlıqlarının, habelə cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinin müdafiəsini təmin etməkdən ibarətdir. Prokurorluğun qarşısında duran vəzifələrin həlli yalnız dövlətdə güclü və müstəqil mövqe tutması ilə mümkündür.

Bu gün prokurorluq qanunların icrasına nəzarəti həyata keçirən çoxfunksiyalı orqandır, zəruri hüquqi və təşkilati-inzibati bazaya, təlim keçmiş kadrlara, fəaliyyəti üçün maddi-texniki və digər şəraitə malikdir.

Bütün yuxarıda deyilənlərdən görünür ki, bu hakimiyyət institutunun həyata keçirdiyi səlahiyyətlər dövlət hakimiyyətinin heç bir qoluna sığmır. Ona görə də onun bu və ya digər hakimiyyət qollarından birinə daxil edilməsi

yolverilməzdir. Prokurorluq hakimiyyətin qanunvericilik, icra və məhkəmə qollarına həvalə edilən funksiyalardan tamamilə fərqli xarakterli funksiyaları yerinə yetirir. Əks halda, hakimiyyətin bir qolu çərçivəsində fərqli funksional xarakterli iki struktur yaranacaq.

Bu baxımdan hesab edirik ki, qanunda birbaşa olaraq prokurorluğun məhkəmə hakimiyyəti sisteminə daxil olmasının göstərilməsi yanlışdır. Təklif edirik ki, "Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci abzasından "məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla" sözləri çıxarılsın və həmin abzas aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır".

Prokurorluq müxtəlif subyektlərin hüquq, azadlıq və qanuni mənafelərinin pozulması ilə bağlı daxil olan məlumatlara cavab verir. Lakin müasir dövrdə prokurorluq fəaliyyəti bir qayda olaraq, dövlət hakimiyyətinin ayrıca bir növü kimi deyil, ölkədə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə yönəlmiş dövlət fəaliyyətinin formalarından biri kimi qəbul edilir. Prokurorluq müxtəlif fəaliyyət sahələrində qanunlara əməl olunmasına daim nəzarət edir və nəzarətdə saxlayır. Buradan belə nəticə çıxır ki, prokurorluq müxtəlif hüquq münasibətləri sahəsində qanunların icrasına və onlara əməl olunmasına nəzarəti həyata keçirən yeganə dövlət orqanıdır [14]. Heç bir başqa dövlət orqanının qanunla ölkə konstitusiyasına və qanunlarına əməl olunmasına nəzarət etmək səlahiyyəti yoxdur [11, s. 109]. Bununla da, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları qanunlara əməl olunmasına nəzarəti həyata keçirmir, onlar sadəcə qanunun aliliyini təmin edirlər [6, s. 133].

Prokurorluğun digər nəzarət orqanlarından fərqi ondadır ki, prokurorluq insan hüquqlarını müdafiə edən universal orqan, vətəndaş cəmiyyətinin və dövlətin mənafelərinin qoruyucusu kimi çıxış edir [10, s. 116]. Prokurorluğa tabeliyindən asılı olmayaraq bütün hüquq subyektləri tərəfindən qanunların icrasına nəzarət etmək vəzifəsi həvalə edilmişdir. O, insan hüquqlarının pozulması ilə bağlı məlumat daxil olduğu zaman hər hansı dövlət orqanında, müəssisədə və ya qurumda yoxlama aparmaq səlahiyyətinə malikdir. Məsələn, prokurorlar daxili işlər orqanlarının əməkdaşları tərəfindən cinayət və ya inzibati xəta törətmiş şəxslərə qarşı zorakılıq üsullarından istifadə etmələri, onlara fiziki güc və ya xüsusi vasitələr tətbiq etmələri və ya bu barədə onlara hədə-qorxu gəlmələri, onlara qarşı müxtəlif məcburiyyət formalarından istifadə etmələri hallarını aşkar etmək üçün müvafiq müraciət olduqda araşdırma aparmaq vəzifəsini daşıyırlar. Bu baxımdan demək olar ki, prokurorluq hüquq mühafizə orqanları sisteminin tərkibinə daxil olan orqan olmaqla yanaşı, həm də bu sistemin təşkilinə və fəaliyyətinə özü nəzarəti həyata keçirir.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, prokurorluq orqanları hakimiyyət qolları və dövlət orqanları tərəfindən ümumilikdə qanunvericiliyin icrasına nəzarəti həyata keçirir. Onun digər hüquq mühafizə orqanlarından əsas fərqi ondadır ki, həmin orqanların fəaliyyəti, bir qayda olaraq sahəvi xarakter daşıyır və onların səlahiyyətləri məhduddur. Bundan fərqli olaraq prokurorluq orqanları isə hüquq mühafizə orqanları sistemində bu sistemin fəaliyyətinə nəzarət edən müstəsna səlahiyyətli orqan kimi çıxış edir.

Prokurorluq orqanları qanunların icra və tətbiq olunmasına nəzarəti həyata keçirməklə ictimai maraqları təmsil edir və müdafiə edirlər. Bu baxımdan V.D.Koşlevski haqlı olaraq qeyd edir ki, prokurorluq ictimai maraqları müdafiə

edərək daxili və xarici siyasətin aparılmasında dövlətin aləti kimi çıxış edir. Ona görə də prokurorluq dövlət siyasətini həyata keçirməyə borcludur [12, s. 52]. Deməli, prokurorluq dövlət hakimiyyəti orqanı kimi təkcə hüquqi deyil, həm də siyasi əhəmiyyətə malikdir və bu keyfiyyət onu hüquq mühafizə orqanları sisteminə daxil olan digər orqanlardan fərqləndirir [13, s. 56].

Nəticə olaraq prokurorluğun hüquq mühafizə sistemində yeri və rolu ondan ibarətdir ki, o, hakimiyyət bölgüsü sistemində mühüm yer tutur, bilavasitə heç bir başqa sistemin (orqanın) tərkib hissəsi deyildir. Onun fəaliyyəti ictimai maraqların təmin edilməsinə yönəlmişdir və buna görə onun fəaliyyəti dövlət fəaliyyətinin həyata keçirilməsinin xüsusi növüdür. Prokurorluq qanunlara əməl olunmasına nəzarət edən yeganə hüquq mühafizə orqanıdır, bütün digər hüquq mühafizə orqanları prokurorluğun nəzarəti altında ola bilər. Unikal mərkəzləşdirilmiş idarəetmə sisteminə malik olan prokurorluq orqanları qanunçuluq prinsiplərinin həyata keçirilməsini, hüquq qaydasının vəhdətini və müxtəlif subyektlərin hüquq, azadlıq və qanuni mənafelərini təmin edir.

**İstifadə edilmiş mənbələr:**


1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2021. – 96 s.

2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi // 14 iyul 2000-ci ildə qəbul edilmişdir. – Bakı: Qanun, – 2021. – 640 s.

3. Azərbaycan Respublikasının «Prokurorluq haqqında» Qanunu // 7 dekabr 1999-cu ildə qəbul edilmişdir: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/5229

4. Cəfərov, V. Qanunçuluğun təmin edilməsində prokurorluğun rolu //Ekspress. – 2017, 11-13 fevral. – s.10

5. Баглай М.В. Конституционное право России. Учебник для вузов. – М., 2006. – 370 с.

6. Беляев В.П. Контроль и надзор в Российском государстве. – М.: Проспект, – 2005. – 272 с.

7. Велиев И.В. Место прокуратуры в системе органов государственной власти Российской Федерации // Современное право. – 2006. № 10, – с. 23-26.

8. Елизаров А.Б. Роль и место прокурорского надзора в триаде властей // Гос. Власть и местное самоуправление, – 2004. № 1, – с. 9.

9. Еремина Н.В. Государственно-правовой статус прокуратуры и ее место в системе государственного механизма // Вестник красгау, – 2007. №3, – с. 266-268.

10. Забудько Ю.С. Участие органов прокуратуры в обеспечении защиты конституционного права на неприкосновенность частной жизни // Вестник Академии Генеральной прокуратуры РФ, – 2014. № 5, – с. 116

11. Карпов Н. Н. К вопросу о правовом статусе прокуратуры Российской Федерации // Вестник Московского университета МВД России, – 2022. № 2, – с.101-106.

12. Кошлевский В.Д. Прокуратура в системе органов государственной власти Российской Федерации: теоретический аспект / под ред. А.Б. Лисюткина. Пенза : Пензенская правда, – 2007. – 52 с.

13. Чечин В.А. Доктринальные основания развития прокуратуры в Российской Федерации // Правовая культура, – 2015. № 3, – с. 56.

14. Каинов, А.С. Прокуратура как особый правоохранительный орган // Актуальные проблемы российского права, – 2017. № 4 (77), – с. 199-207: [Электронный ресурс]/ https://cyberleninka.ru/article/n/prokuratura-kak-osobyy-pravoohranitelnyy-organ.

**Алиев Заур Вагиф оглу**

**КОНСТИТУЦИОННО-ПРАВОВЫЕ ОСНОВЫ ПРАВООХРАНИТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ ПРОКУРАТУРЫ**

**РЕЗЮМЕ**

В статье принцип законности рассматривается автором как один из основных показателей правового государства, анализируется место прокуратуры в системе государственной власти, включая правоохранительные органы, а также указаны функции и обязанности прокуратуры. Было рассмотрено определение прокуратуры, установленное в статье 133 Конституции Азербайджанской Республики, а также рассмотрены модели применения прокуратуры в разных странах. Автор объяснил теоретические и правовые основы включения прокуратуры в судебную систему, ее отличия от других органов контроля.

**Aliyev Zaur Vagif**

**CONSTITUTIONAL AND LEGAL BASES OF LAW ENFORCEMENT ACTIVITIES OF THE PROSECUTOR'S OFFICE**

**SUMMARY**

In the article, the principle of the rule of law was considered by the author as one of the main indicators of the legal state, the place of the prosecutor's office in the system of state power, as well as was analyzed the law enforcement agencies, and indicated the functions and duties of the prosecutor's office. The definition of the prosecutor's office established in Article 133 of the Constitution of the Republic of Azerbaijan was reviewed, and the application models of prosecutor's offices in different countries were examined. The author explained the theoretical and legal basis of the inclusion of the prosecutor's office in the judicial system, its different characteristics from other control bodies.

**Redaksiyaya daxilolma tarixi: 03.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 05.02.2024**
**Çapa qəbul olunma tarixi: 07.02.2024**